# IV. AMAL VƏ ƏMƏL SAVAŞI: DƏYƏRLƏR, MİLLİ-MƏNƏVİ PROBLEMLƏR

## 1. Sözün həqiqət gücü - "qalib gələcəkmi cahanda kamal"

***Qulu müəllimlə çoxillik dostluğum məni heç vaxt hansısa sual qarşısında qoymayıb. Çünki o, hadisələrə, ictimai-siyasi və mənəvi-etik proseslərə daim obyektiv münasibəti ilə seçilmiş mövqeyini heç nəyə qurban verməyən, özünü və sözünü televiziya tamaşaçılarının bu gün də səbirsizliklə gözlədikləri nadir şəxsiyyətlərdəndir.***

**Ələkbər ABBASOV (ŞƏHRİLİ),**
**Əməkdar jurnalist**

Bəlkə də, bu yazıya başqa bir sərlövhə vermək qəsdindəydim. Amma elə diktənin ilk cümləsinə başlayacağım anda yaxınlıqdakı məsciddən yayılan azan səsi başımızın üstündən keçib Bakı göydələnlərinin arasında əks-səda verdi. Həzin, məlahətli səs, ruhu oxşayan avaz adamı dərin düşüncələrə çəkir. Dünyanın gəldi-gedərliyi, həyatın fərd üçün müvəqqətiliyi haqqında bir az da kədərli ovqatla düşünürsən. Əgər bu dünya əbədi bir səhnədirsə və biz bu səhnədə bizə ayrılmış vaxt ərzində görünürüksə, onda niyə axıracan səmimi olmayaq.

Bəlkə sözümüzün bütün imkanlarını, həqiqət naminə sərf edək.

Qulu Məhərrəmlinin "Gələcəyə ön söz" kitabında verilmiş yazılar tarixi-xronoloji ardıcıllıqla düzülüb. Ancaq müəllifin özünün şəxsi köməyi ilə biz bu yazıları müəyyən bölmələrə ayırmalı olduq və nəticədə işlədiyimiz yazıların artıq oxucuya məlum olan bölmələri formalaşdı.

Bu bölmələrdən biri də "Dəyərlər, Milli-mənəvi problemlər" adlanır. Müəllif bu mövzu ətrafında, görünür, ardıcıl yaradıcılıq axtarışları apardığından mövzunu həmişə diqqətdə saxlayıb və kitabda kifayət qədər geniş yer alan bir mövzu kimi diqqət çəkir. Müəllif bu mövzuda 12 yazı yazıb. Əlbəttə, bütövlükdə Qulu Məhərrəmlinin yaradıcılığı fonunda danışmaq istədiyimiz mövzu üzrə onun daha çox yazıları var. Ancaq söhbət məhz "Gələcəyə ön söz" kitabından gedirsə, biz burada cəm olunan yazıların sadəcə say sırasını oxucuya çatdırmaq istərdik: *"Şairlərin günahı nə?"*, *"İntriqa mərəzi, yoxsa ekspert qərəzi?"*, *"Dəyərlərə daş atanlar"*, *"Şərəfsizlik virusu"*, *"Suyu unitaza necə axıtmalı"*, *"Korşalmış instiktlər"*, *"Mənəvi düşkünlük sidromu"*, *"Virus"*, *"Müsəlman geriliyinin beş səbəbi"*, *"Vəzifəm mənim sərvətimdir"*, *"Köhnə kişilər haqqında hekayət"*, *"Üç epizodda insan mənzərəsi"*. Bir sözlə, bu yazıların ümumi motivi Azərbaycanın tarixən ruhunu yaşadan keyfiyyətləri diqqət mərkəzinə çəkir. Əgər belə demək mümkünsə, bu dəyərlərin sərhədlərini müəyyənləşdirir. Kim bu sərhədləri hansı niyyətlə keçir, onu sərf-nəzər edir. Yaxşını pisdən ayırmağa çalışır.

Bir sözlə, Qulu Məhərrəmli bu mövzu ətrafındakı yazıları ilə əsil sərhədçi missiyası daşıdığını göstərir. Doğrudan da, vətənin sərhədlərini əsgər qoruyursa, onun dəyərlər, milli-mənəvi sərvətlər mühitini də elə vətənin özünün sərhədləri kimi qorumaq şərəflidir və bu yöndən yanaşanda Q.Məhərrəmlinin necə böyük məsuliyyətlə özünün mənəvi borcunu yerinə yetirdiyini görməmək olmaz.

Müəllifin *"Şairlərin günahı nə?"* (08.06.2013) yazısında tarixdən gətirilən anoloji məqamlarla, günümüzün reallıqlarını qarşılaşdırmaq və əsil həqiqəti üzə çıxarmaq istəyi daha güclüdür.

Müəllif bütün yazılarında olduğu kimi burada da sözün həqiqət gücünə istinad edir. Ən azı onun məramını ikinci yarımbaşlıqda da görmək mümkündür: *"Səməd Vurğuna və mənəvi dəyərlərimizin digər daşıyıcılarına qarşı növbəti hücumlar haqqında"*. Bəli, bu prinsipial, əqidəli müəllifin, sözününü gücünə güvənən publisistin prinsipial məsələ haqqında düşüncələridir.

Səməd Vurğunun "İnsan" dramından məşhur bir kəlam zamanımıza və gələcək zamanlarımıza xüsusi xəbərdarlıq kimi yaddaşımızda daim əks-səda verir: *"Qalib gələcəkmi cahanda kamal?"*. Çox tutarlı sualdır. Əslinə qalsa, Səməd Vurğun həyatı boyu kamalın qalib gələcəyinə, ağılın bütün ağılsızlıqlara hakim olacağına inanıb, amma zamanı üçün problemli olan bir mühitdə öz inamını gələcəyə sual mesajı ilə ötürüb.

Doğrudur, müəllif bir qədər dərindən gəlir. 37-ci il repressiyasını, 52-ci ildə Səməd Vurğunun çıxışını dinləyən Bağırovun replikalarını, sonrakı zamanda cümhuriyyəti yıxıb kommunist rejimi quranların nəticədə faciəvi sonluqlarını bu yazısında yada salır və bütövlükdə ölməz ilham abidəsi ilə sözündə bir xalqın bütöv ruhunu daşıyan şairin obrazını yaradır. Əvvəlcə repressiyanın möhtəşəm qurbanlarını (H. Cavid, M.Müşfiq, Ə.Cavad, Y.Vəzir) yada salır. Və sanki bunlara qarşı olaraq əks qütbün obrazlarını da unutmur. M.C.Bağırov, S.M.Əfəndiyev, H.Sultanov kimi simaların adları Qulu Məhərrəmlinin yazısından keçir. Və elə buradaca Mircəfər Bağırovun həm öz silahdaşlarını, həm də artıq həbs olunmuş yazıçıların adlarını bir daha xatırladır: Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Əli Nazim, Böyükağa Talıblı, Tağı Şahbazi, Əhməd Triniç... Bağırov bu adları çəkir, Qulu Məhərrəmli də xronikaya uyğun olaraq həmin adları təkrar edir. Burada mənim diqqətimi Əhməd Triniçin adı çəkdi. Onun təbiətindəki ziddiyyətlər digər qələm saihbləri üçün bəlaya çevrilmişdi və son nəticədə özünü də bəlaya yuvarladır.

Zənnimcə, bu adları və az qala vahimə yaradan xronikanı Qulu Məhərrəmli təsadüfi xatırlatmır.

Səməd Vurğunun üzərinə olan bugünkü hücumların, əslində necə, hansı fəlakətlərdən keçdiyini göstərmək üçün müəllif tarixə istinad etmişdir. Və nəhayət, Səməd Vurğunun öz əsərlərində Müsavat hökümətinə, cümhuriyyətə, Stalinin ideoloji düşməni olan Rəsulzadəyə münasibətində anti-millilik axtaran müasir təftişçilərin əsil məqsədlərini elə bu faktlar əsasında üzə çıxarmağa çalışır.

Burada bir çox çıxışları ilə kütlənin emosional duyğularına təsir edərək özünə haqpərəst imici yaratmağa çalışan Sərdar Cəlaloğlunun obrazı da görünür. Və Səməd Vurğuna münasibətdə onun qoltuğundakı xoruzun quyruğu açıq-aşkar göz qabağında olur: *"Əlbəttə, böyük şairi tarixi həqiqətləri təhrifdə günahlandırması əsla S.Cəlaloğlunun Şah Qacara və ya M.Ə.Rəsulzadəyə sevgisi ilə bağlı deyildir. Xüsusən, onun ikinciyə məhəbbətinin işartıları belə görünmür. Digər tərəfdən biz bədii əsərlə gerçək olmuşlar arasında oxşarlıq paralelləri aparsaq, gərək onda tarixi mövzuda yazılmış əsərlərin 70-80 faizinin müəllifini güllə qabağına qoyaq. Yazıçı üçün tarixi hadisə və şəxsiyyət bədii obrazdır, qüdrətli qələm sahibləri bu obrazları bədii həqiqətə çevirməklə yadda qalan əsərlər yaradırlar. Şekspir də, Hüqo da, Tolstoy da, Cavid və Səməd Vurğun da bu yolla getmişlər"*. Qulu Məhərrəmli öz üslubuna uyğun olaraq Sərdar Cəlaloğlunu məsxərə obyektinə çevirmir, ancaq onun anti-milli simasını elə Səməd Vurğuna münasibəti ilə ifşa edir və bundan sonra Səməd Vurğunun sözünün həqiqət gücünü göstərən yaradıcılıq örnəklərinə diqqəti yönəldir: *"Əlbəttə, S.Vurğunun ideoloji xətdən kənara çıxdığı vaxtlar olurdu, amma "çekist ruhlu" sovet senzorları onun qarşısını məharətlə alırdı. Araşdırmaçı A.Salmanov bununla bağlı şairin "Aslan və Mahniyar" peoamsının avtoqrafından yola çıxaraq aşağıdakı nümunələri gətirir:*

*"O gündən titrədi yurdun üstündə,*
*Cütbaşlı qartalı qanlı bayrağı.*
*Tarixin doğduğu o qara gündə,*
*Böyük bir ölkənin söndü çırağı".*

*-misraları ilə başlayan və Rusiyanın Azərbaycanı işğalının mahiyyətini açan böyük bir parça (60 misra) nəşrdə ixtisar edilmişdir. Şair əsərin sonrakı hissəsində deyir:*

*"Üç yüz il yarıldıq ana dilindən,*
*Məktəbin adına dedik "uşkola".*
*...Axdı Rusiyanın neft kəmərləri,*
*Daşıdı onları ilk dəmir yolu.*
*Tarixə hökm edən o gündən bəri,*
*Çalışdı yadlarla azərin oğlu".*

*Görünür, sovet dövründə də davam edən işğalçılıq siyasətinin (ruslaşdırma, ölkə sərvətlərinin talanması və s.) qabardılması senzorların diqqətindən yayınmamış, nəticədə parça ixtisar edilmişdir"*. Vaxtı ilə Qorki deyirmiş ki, faktlar çox tərs olur, adamın üzünə durur. Görəsən, Qulu Məhərrəmlinin görkəmli mətnşünas, tədqiqatçı Aslan Salmansoya istinadən gətirdiyi bu yaradıcılıq faktlarından Səməd Vurğunu *"dağıtmaq"* istəyində olan opponentlərin xəbəri varmı? Biz onların adlarını çəkmək istəmirik.

Dəyərlər, milli-mənəvi problemlər ətrafında düşünən, mühakimələri ilə çıxış yolu axtaran və cəmiyyətə düz yol göstərən ziyalı mövqeyi budur. Qulu Məhərəmlinin təbirincə desək, *"Səməd Vurğun həm yaddaşlarda iz salmış parlaq şəxsiyəti, bir az mistikləşmiş həyatı, həm də şeirlərindən bulaq suyu kimi süzülüb gələn büllur təbi, xalq təfəkkürünə söykənən hikməti və poetik vüsəti ilə XX əsr ədəbiyyatımızın sönməz işığıdır"*. Daha bundan o yana söz qalmır. Əgər söz qalırsa, elə onu da Qulu Məhərrəmlinin öz sözləri ilə demək daha düzgün olardı: *"Səmə Vurğun poeziyası... başdan-ayağa Azərbaycan adlı bir ölkənin mənəvi məkanı, onun döyünən ürəyi və ölməz ruhudur"*. Hələ əvvəlcə biz demişdik ki, mənəviyyat özü vətən sərhədi kimi məkan kəsb edir. Və Qulu Məhərrəmli elə Səməd Vurğun mühitini mənəviyyat məkanı kimi xarakterizə edir.

Məlum mövzu ətrafında digər yazılara keçid almaq istərdik. Bu baxımdan növbəti yazı *"İntriqa mərəzi, yoxsa ekspert qərəzi?"* (23.02.2013) adlanır.

Qulu Məhərrəmli istər publisistik yaradıcılığı, istər politoloji fəaliyyəti ilə kifayət qədər imic sahibidir. Ancaq unutmaq lazım deyil ki, o, həm də fəal jurnalist mövqeyi tutan yaradıcı şəxsdir. Həyatın ziddiyyətli məqamlarına, kölgəli tərəflərinə daim işıq tutmaq istəyi ilə fərqlənir. Məhz bizim indiki mühitimizdə çoxlu toqquşan məqamlar var. Bu toqquşan tərəflərə təəssüf ki, düzgün münasibəti çox az hiss edirik.

Hər halda kəskin toqquşma məqamlarına münasibət bildirənlər var və belələrinin sırasında Qulu Məhərrəmli birincidir. Təhsil Nazirliyi ilə TQDK-nin dərsliklərlə bağlı qarşılaşmasında müəllifin mövqe aydınlığını görməmək mümkün deyil.

Qulu Məhərrəmli mühiti ardıcıl izləyən jurnalistdir və bu yazısında da təcrübəli publisist üslubu ilə özünün jurnalist nüfuzu ilə məsələyə münasibət bildirir. Və yeri gəlmişkən, TQDK-nin rəhbəri Məleykə Abbaszadənin mənəvi keyfiyyətlərini elə bircə cümlə ilə də olsa ümumiləşdirə bilir: *"O, bizim mühitdə dəyərli mütəxəssis və vicdanlı məmur keyfiyyətlərinin bir-birinə zidd olmadığını təkcə testlərdə yox, həyatda da bacarıqla sübut edib"*. Yaxşı fikirdir. xüsusilə dəyərli mütəxəssis və vicdanlı məmur keyfiyyətlərinin bir adamın simasında görünə bilməsi məsələsi. Belə bir keyfiyyət, əslində, indiki mühitimiz üçün az tapılandır və elə Qulu Məhərrəmli də bu məqamı dəqiq ifadə etdiyindən diqqətimiz cəlb etmişdir.

Müəllif qarşılaşan tərəflərin bir-birilə sənət, yazı savaşında həqiqətdən çox intriqa və qərəz görür. Üstəlik intriqanı mərəz adlandırır, qərəzi də bu mərəzin güc mənbəyi hesab edir. Və ifşa edici mühakiməsi ilə mətləbə yekun vurur: *"Bir şey də məlum olub ki, məmləkətdə intriqa mərəzi şiddət etməkdədir. Şiddət çanağının kimin başında çatlayacağını proqnozlaşdırmaq çətindir, amma indiki halda dərsliklərin ekspert qərəzinə və monitorinq tələsinə tuş gəldiyini demək çətin deyil..."*. Doğrudur, dəqiq müşahidə nəticəsi olan mühakimədir.

Açığı dərsliklərlə bağlı mən də öz mövqeyimi burada bildirmək istərdim. Dərsliklərə yol tapan Adəm-Həvva nağılları, elmi əsasdan məhrum mühakimə mətnləri sözün həqiqi mənasında ikrah doğurur. Dini-mistik düşüncə, elmi əsası olmayan məsələlər dərsliklərin içərisinə daşınır. Bunlarla necə razılaşmaq olar?

Hətta bu gün ayrı-ayrı ədəbiyyatşünasların düşüncəsində klassikləri şərh etmək adı altında "cin" obrazı reallıq kimi təsvir olunur.

Söz elə buradaca bitir.

***16.09.2021***